❒ Müasir müstəqil dövlətimizin qurulması və möhkəmləndirilməsi sahəsində çoxşaxəli və yorulmaz fəaliyyəti, Azərbaycanın inkişafında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyev zaman və məkan anlayışına sığmayaraq öz xalqının təkcə sevimlisinə yox, həm də idealına çevrilib. Bu da təsadüfi deyil. Çünki bu gün müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın qazandığı böyük uğurlar məhz ümummilli liderin dühasının bəhrəsidir. Hər birimiz bugünkü firavan həyatımıza, xoş gələcəyimizə görə əbədiyaşar ulu öndərimizə borcluyuq.

Azərbaycanın qazandığı böyük uğurlar Heydər Əliyev dühasının bəhrəsidir

Ümummilli lider Heydər Əliyev 1969-cu ildə rəhbər seçiləndə Azərbaycan geridə qalmış aqrar respublika idi və ölkəmizin mədəni, sosial həyatında durğunluq yaşanırdı. Bu böyük şəxsiyyət qısa bir zaman ərzində genişhəcmli tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirdi, Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardı, ölkəmizin gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün münbit zəmin yaratdı.

Xatırladım ki, Azərbaycan 1993-cü ildə böhranlı vəziyyət yaşayırdı, dağılmaq, parçalanmaq, müstəqilliyini itirmək, vətəndaş qarşıdurması təhlükəsi ilə üzləşmişdi. Həmin çətin vaxtlarda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanı daha ağır faciələrdən xilas etdi. Ulu öndərin gərgin fəaliyyəti, qətiyyəti və yenilməz iradəsi hesabına ölkəmizin müstəqilliyi qorundu, respublikamızın gələcək təhlükəsizliyi və inkişafı təmin olundu.

Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr

Bu gün dünyada iqtisadi böhran yaşanır, ciddi maliyyə çətinlikləri nəzərə çarpır. Amma buna baxmayaraq, Azərbaycanda əhalinin rifahı getdikcə yaxşılaşır. Neft-qaz layihələrinin uğurla reallaşması ilə yanaşı, qeyri-neft sektorunun inkişafı da sürətlənir. Yeni infrastruktur obyektləri yaradılır, böyük həcmdə tikinti-quruculuq, abadlıq işləri aparılır. Şəhər və kəndlərin siması dəyişir, müasir müəssisələr istifadəyə verilir. Görülən işlər xalqın gündəlik həyatında, güzəranında özünü qabarıq büruzə verir. Əhalinin elektrik enerjisi ilə təminatı tamamilə həll edilib, qazlaşma 100 faizə yaxınlaşıb. Su təchizatının daha da yaxşılaşdırılması üçün çoxsaylı layihələr reallaşdırılıb və bütüb bu işlər hazırda da uğurla davam etdirilir. Əlbəttə, heç kəsə sirr deyil ki, respublikada sosial tədbirlərin ardıcıllıqla həyata keçirilməsi ölkədə aparılan düzgün, məqsədyönlü və uzaqgörən siyasətin məntiqi nəticəsidir. Azərbaycanın dünyanın mötəbər iqtisadi qurumları tərəfindən də vurğulanan və dəyərləndirilən inkişafı məhz cənab Prezident İlham Əliyevin 2003-cü ildən indiyədək həyata keçirdiyi sosial iqtisadi strategiyaya əsaslanaraq gerçəkləşib.

Burada bir həqiqəti də etiraf etməliyik. Azərbaycanın bugünkü tərəqqisinin bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və 14 ildir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən enerji siyasətindən qaynaqlanıb.

Yeri gəlmişkən, Azərbaycanın 1991-ci ildə müstəqilliyə qovuşduqdan sonra çox ağır problemlərlə üzləşdiyi dövrə qısa nəzər salmaq istərdim. Həmin vaxt respublikamızda dərin böhran yaşanırdı, iqtisadi tənəzzül hökm sürürdü, sənaye potensialı tükənmişdi, inflyasiya getdikcə artırdı. Torpaqlarımızın 20 faizinin erməni qəsbkarları tərəfindən zəbt edilməsi, bir milyondan çox soydaşımızın isə öz ev-eşiyindən didərgin salınması mövcud vəziyyəti daha da ağırlaşdırmışdı. Təbii ki, belə bir şəraitdə Azərbaycanın böhrandan xilası üçün xarici investisiyaya böyük ehtiyac duyulurdu və sərmayənin məhz neft sənayesinə qoyulması məqsədəuyğun sayılırdı. Bu çətin dövrdə xarici neft şirkətlərini Azərbaycana dəvət etmək, onlarda görəcəkləri işin uğur gətirəcəyinə əminlik yaratmaq isə böyük uzaqgörənlik tələb edirdi. Ümummilli lider Heydər Əliyev bunu öz müdrikliyi, dünyadakı siyasi nüfuzu sayəsində gerçəkləşdirdi. Başqa sözlə, ulu öndər heç kəsin təsəvvürünə belə gətirmədiyi bir işi reallaşdırdı: 1994-cü il sentyabrın 20-də Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tam-miqyaslı işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi imzalandı.

Bu məqamda onu da qeyd edim ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanarkən, yeni neft infrastrukturunun yaradılması və köhnənin modernləşdirilməsi qarşıda mühüm vəzifə kimi dururdu. Buna nail olmaq üçün "Azəri-Çıraq-Günəşli" yataqlarında fəaliyyət göstərəcək platformalar tikilməli, neft və qazı Xəzərdən suyun altı ilə quruya daşıyan xətlər, karbohidrogenləri terminal və istehlakçılara ötürən boru kəmərləri çəkilməli, dənizdə müxtəlif daşıma, quraşdırma işlərini yerinə yetirən gəmilər inşa olunmalı idi. Eyni zamanda, tikinti-quraşdırma əməliyyatlarının yerinə yetirilməsi üçün modernləşdirilən müəssisə tələb olunurdu. Belə bir müəssisə isə Bakıda hələ sovet dönəmində ümummilli liderin təşəbbüsü ilə qurulan Dərin Özüllər Zavodu idi.

Hazırda genişləndirilmiş, modernləşdirilmiş adı çəkilən zavod dünya standartları səviyyəsində fəaliyyət göstərən bir müəssisədir. Onun sexləri, tikinti-quraşdırma və digər sahələri burada ən müasir dəniz platformalarının inşa edilməsinə imkan verir. Mütəxəssislərin fikrincə, əgər bu zavod olmasaydı, Azərbaycanın "Əsrin müqaviləsi" çərçivəsində gördüyü işlər ən azı beş il ləngiyərdi.

Dərin Özüllər Zavodu nəinki "Azəri-Çıraq-Günəşli" yataqları üçün genişmiqyaslı sifarişlər yerinə yetirdi, eyni zamanda, "Şahdəniz" və digər layihələr üçün də çoxsaylı işlər həyata keçirdi, indi də öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

Respublikamızın neft-qaz sahəsində "Əsrin müqaviləsi"ndən sonra əldə etdiyi ikinci böyük nailiyyət Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi və fəaliyyət göstərməsidir. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçən 1768 kilometrlik bu kəmər möhtəşəm bir infrastrukturdur. Onu üçüncü minilliyin nəhəng mühəndis qurğusu da adlandırırlar. Boruları torpağın altında basdırılmış kəmərin yerüstü obyektləri səkkiz nasos stansiyasından və digər qurğulardan ibarətdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin keçdiyi yol nə qədər uzun olsa da, onun fəaliyyətinə nəzarət Azərbaycandan, Bakıdan, Səngəçal terminalından həyata keçirilir.

Xatırladım ki, möhtəşəm mühəndis qurğusu olan bu kəmərin işə düşməsini görmək ulu öndərə qismət olmadı. Layihə ilə bağlı qalan işləri Prezident İlham Əliyev böyük cəsarət və qətiyyətlə davam etdirdi. Cənab İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə çox yüksək dəyər verir. Bu qurğunun sonrakı ixrac layihələri üçün möhkəm təməl olduğunu vurğulayır. Bəli, həqiqətən də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tikilməsəydi, çox hissəsi bu kəmərlə eyni dəhliz boyu uzanan Bakı-Tbilisi-Ərzurum qaz xətti də olmazdı. Bu qaz kəməri əslində, "Cənub" qaz dəhlizinin reallaşmasında əsas rol oynayıb.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri gətirdiyi gəlirlərdən, Azərbaycanın və regionun iqtisadi həyatında daşıdığı mühüm əhəmiyyətdən əlavə, həm də ölkəmizlə Avropa arasında daha geniş əlaqələrin qurulmasında, layihələrin reallaşmasında böyük önəm daşıyıb. Odur ki, Prezident İlham Əliyev bu kəməri belə səciyyələndirib: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq, böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil etdirə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən növbəti qlobal layihə - "Cənub" qaz dəhlizi də uğurla icra edilir. Dəhliz bir-birinə calanaraq 3500 kilometr məsafə boyu uzanan üç boru kəmərindən ibarətdir. Azərbaycanın və Gürcüstanın ərazisində qazı başlanğıcını Səngəçaldan götürən və hazırda genişləndirilməsi başa çatmaqda olan Cənubi Qafqaz Boru Kəməri nəql edəcək. "Cənub" qaz dəhlizinin "onurğa sütunu" adlandırılan TANAP (Transanadolu Qaz Boru Kəməri) Azərbaycan qazını Türkiyədəki istehlakçılara çatdıracaq. Türkiyə ilə Yunanıstanın sərhədindən başlanan TAP-la (Transadriatik Qaz Boru Kəməri) isə mavi yanacaq Avropaya ixrac ediləcək. TANAP-ın gələn il, TAP-ın isə 2020-ci ildə fəaliyyətə başlayacağı gözlənilir.

İlkin mərhələdə ildə 16 milyard kubmetr qaz ixrac olunacaq ki, bunun da 6 milyard kubmetri Türkiyə, 10 milyard kubmetri isə Avropa üçün nəzərdə tutulub. Sonrakı mərhələlərdə bu həcmlərin xeyli artırılacağı da istisna deyil.

Yuxarıda qeyd etdiyim kimi, "Əsrin müqaviləsi"nin imzalanması həm də gələcək əsrlərə hesablanmış bir sazişdir. "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması deyilənlərin əyani təsdiqidir. Belə ki, bu il sentyabrın 14-də imzalanmış saziş Azərbaycan dövlətinin ulu öndər Heydər Əliyev iqtisadi və siyasi kursuna sədaqətini, ölkə iqtisadiyyatının çoxşaxəli variantda inkişaf etdiyini əyani göstərdi. Prezident İlham Əliyevin Azərbaycana dünyada böyük hörmət və nüfuz qazandırdığını sübut etdi.

Yeri gəlmişkən, 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi üçün saziş 30 il müddətinə imzalanmışdı. Bu il dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması vaxtilə başlanan möhtəşəm işlərə mane olmaq istəyənlərə - xaricdəki əleyhdarlarmıza və daxildə aranı qarışdıran, "sapı özümüzdən olan baltalara" da tutarlı cavab oldu. Onlar "Azərbaycanda neft yoxdur, olmayacaq", - deyirdilər. Gələcəkdə nefti nəql edəcək infrastrukturun qurulmasına əngəl törətməyə çalışırdılar. Lakin məqsədlərinə nail ola bilmədilər.

Neft kapitalı insan kapitalına çevrilir

Ulu öndərimizin neft gəlirlərinin Azərbaycanın gələcəyini təmin edəcək qeyri-neft sektorunun genişləndirilməsinə və şaxələndirilməsinə yönəldilən siyasətinin əsası 1999-cu ildə Dövlət Neft Fondunun yaradılması ilə qoyulub. Ötən müddətdə ölkənin sosial-iqtisadi inkişafına sərf olunan daxili investisiyaların xeyli hissəsi məhz bu fondun hesabına formalaşıb. Hələ o vaxt ulu öndərimiz neftdən əldə olunan gəlirləri xalqın ən ümdə problemlərinin həllinə yönəltmək təşəbbüsünü irəli sürmüşdü. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla həyata keçirilir.

Neft-qaz gəlirləri hesabına qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr salınıb. Həmin qəsəbələrdə infrastruktur qurulub. Bölgələrimiz abadlaşıb, paytaxtımız dünya meqapolisləri sırasına çıxıb. Azərbaycanda 3 mindən artıq məktəb tikilib, 600-dən çox xəstəxana, bölgələrdə 50-dən çox olimpiya mərkəzi inşa edilib, 11 min kilometrdən çox yol çəkilib, enerji infrastrukturu, şaxələndirilmiş iqtisadiyyat yaradılıb.

Göründüyü kimi, bu gün ölkənin tərəqqisinin, inkişafının təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə olunması amili dayanır, neft kapitalı insan kapitalına çevirilir.

Sənayeləşmə siyasəti diqqət mərkəzindədir

Yuxarıda xatırlatdığım kimi, iqtisadiyyatımızın aparıcı sahəsini təşkil edən neft sənayesi ölkəmizin inkişafında mühüm rol oynayır. Lakin neftin qiymətinin dünya bazarında sabit olmaması, xüsusilə kəskin şəkildə dəyişməsi neft ixrac edən ölkələr kimi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmür və buna görə də qeyri-neft sektorunun inkişafına, sənayeləşmə siyasətinə xüsusi diqqət yetirilir. Məqsəd isə ölkənin neftdən asılılığına son qoymaqdır.

Bu gün ölkəmizdə sənayeləşmə siyasətinə əsasən, iri sənaye mərkəzlərində - xüsusilə Bakı, Sumqayıt və Gəncə şəhərlərində böyük sənaye müəssisələri, texnologiya parkları qurulur. İndi Mingəçevirdə böyük sənaye zonası yaradılır və kiçik şəhərlərdə də belə layihələrin icrası həyata keçirilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev sənayeləşmə siyasətinin uğurla aparıldığını vurğulayıb: "Biz bu zonaların yaradılması ilə iş adamlarına dövlət tərəfindən növbəti dəstək göstəririk. Bu zonanın yaradılması bizim təşəbbüsümüz olub. Azərbaycan dövləti bu təşəbbüslə çıxış edib və dövlət tərəfindən bu zonanın yaradılmasına 20 milyon manatdan çox vəsait ayrılıb. Bütün infrastruktur məsələləri həll olunub, modullar inşa edilib və özəl sektora burada fəaliyyətə başlamaq üçün kreditlər verilib. Özəl sektor da kreditlər hesabına və öz vəsaiti hesabına 45 milyon manat sərmayə qoyub. Yəni, bu, onu göstərir ki, burada dövlət-özəl sektor tərəfdaşlığı özünü göstərir. Çünki əgər biz bu təşəbbüslə çıxış etməsəydik, onu irəli sürməsəydik, bax, bu zona da heç vaxt yaranmazdı. İndi bu zona var və o, böyüyəcək. Bildiyimə görə, rayon sahibkarları tərəfindən maraq çox böyükdür. Burada istehsal olunan və olunacaq mallar idxalı əvəzləmək üçün bizə kömək göstərəcək. Çünki indi bizim əsas məqsədimiz yerli istehsalı daha da gücləndirmək, idxaldan asılılığı azaltmaqdır".

Kənd təsərrüfatında reallaşdırılan siyasət aqrar-sənaye kompleksinin köklü şəkildə müasirləşdirilməsinə səbəb olub. Aqrar sahənin vergilərdən azad olunması, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarlarının, Baş Mil-Muğan kollektorunun tikintisi, habelə digər iri layihələrin gerçəkləşdirilməsi sayəsində müsbət nəticələr əldə edilib.

Hazırda aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir.

İnvestisiya imkanlarının genişləndirilməsi – davamlı inkişafın möhkəm təməli

Dünyada maliyyə resurslarının məhdudlaşdığı, şirkətlərin, sahibkarların investisiya qoyuluşlarına son dərəcə ehtiyatlı yanaşdığı bir dönəmdə Azərbaycan həm daxili, həm də strateji əhəmiyyətli beynəlxalq layihələrin həyata keçirilməsində nümunə göstərən dövlətə çevrilib. Eyni zamanda, Azərbaycanda olan təhlükəsizlik, makroiqtisadi sabitlik, əlverişli biznes və investisiya mühiti də istənilən layihənin gerçəkləşməsinə təminat verir. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi həm sosial-iqtisadi, həm də praqmatik və müstəqil siyasət nəticəsində reallaşıb.

Artıq beynəlxalq birliyin etibarlı tərəfdaşı olan Azərbaycan daxili imkanları hesabına böyük iqtisadi, maliyyə və digər resurslar tələb edən layihələr həyata keçirir. Regionda hadisələrin inkişaf istiqamətini müəyyənləşdirən ölkəmiz həm də dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi xarakterizə olunur. Özünü dünyaya müasir, güclü dövlət kimi təqdim edən Azərbaycan sosial-iqtisadi inkişaf tempinə görə dünyada öncül yerlərdədir.

Azərbaycanın iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Respublikanın investisiya mühiti investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlərlə tənzimlənir.

Ölkəmizdə sənayenin, kənd təsərrüfatının inkişafı üçün həyata keçirilən daxili investisiya layihələri nəticəsində zavod-fabriklər, sənaye parkları və sənaye məhəllələri, texno və aqroparklar, eləcə də digər təyinatlı istehsal obyektləri səmərəli fəaliyyət göstərir. Böyük sənaye müəssisələrinin tikintisi üçün investisiyaların ayrılması Prezident İlham Əliyevin iqtisadi strategiyasının uğurla həyata keçirildiyini bir daha təsdiqləyir.

Qloballaşan dünya iqtisadiyyatında baş verən mənfi tendensiyalar, demək olar ki, əksər ölkələrdə sərmayə qoyuluşunu azaldıb. Ancaq Azərbaycandakı mövcud investisiya imkanları və dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə yaradılan əlverişli biznes mühiti yerli sahibkarlarla yanaşı, xarici investorları da ölkəmizə cəlb edir. Ölkə rəhbərinin tapşırıqlarına əsasən investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərin nəticəsidir ki, Azərbaycana sərmayə qoyan şirkətlərin sayı ilə yanaşı, onların coğrafiyası da getdikcə genişlənir. Məlumdur ki, investorlar ancaq sabit olan yerlərə sərmayə qoymaqda maraqlıdırlar. Elə bunun nəticəsidir ki, ölkə iqtisadiyyatına 2004-2017-ci illərdə 225 milyard dollar həcmində investisiya qoyulub. Son 14 ildə ölkə iqtisadiyyatına yatırılan xarici investisiyanın həcmi isə 107,2 milyard dollar təşkil edir.

Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət əsaslı vəsait qoyuluşu xərcləri son 14 ildə dinamik olaraq artıb, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olub.

Azərbaycan dünya liderləri sırasında

Bu il BMT və Dünya Bankının dərc etdirdiyi hesabatlarda əksini tapan innovativ insan potensialına əsaslanan davamlı inkişaf göstəricilərinə görə, Azərbaycan hazırda dünya liderləri sırasındadır. Ölkəmizin qazandığı hər bir uğurun təməlində ulu öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın hərtərəfli inkişafına və tərəqqisinə hesablanan inkişaf strategiyası dayanır.

Respublikamızda iqtisadi islahatların yeni mərhələsinin başlanması ilə əlaqədar mühüm tədbirlər həyata keçirilir. Mütəxəssislərin fikrincə, bu gün artıq 2050-ci ili proqnozlaşdırarkən, neft sahəsi ilə yanaşı, aqrar sektorun, tikintinin, infrastruktur layihələrinin də həyata keçirilməsi planlaşdırıla bilər. Azərbaycanda iqtisadi islahatların dərinləşməsi möhkəm təməl üzərində qurulur. Məşğulluğun dinamikasında artım, regionların inkişafı, digər strateji proqramların uğurla həyata keçirilməsi iqtisadi islahatların dərinləşməsi üçün möhkəm baza yaradır.

Azərbaycan iqtisadiyyatında islahatlar bəhrəsini verməkdədir. İslahatların bu il ən böyük uğurları kimi tədiyə balansında müsbət dəyişiklik, manatın sabitliyi, strateji valyuta ehtiyatlarının artması, həmçinin biznesin və ev təsərrüfatlarının gözləntilərinin müsbətə doğru dəyişməsi qeyd edilə bilər.

Bu gün iqtisadi islahatlar üzrə başlıca hədəf kimi ölkə iqtisadiyyatının dayanıqlılığının şaxələndirilməsinin və rəqabət qabiliyyətinin təmin edilməsi qarşıya qoyulub. Bu məqsədlə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatların aparılması, dövlət tərəfindən sahibkarlara hərtərəfli dəstək verilməsi, məşğulluğun və sosial məmnunluğun reallaşdırılması istiqamətində bir sıra mühüm qərarlar qəbul edilib. Bütün bunların sayəsində Azərbaycan son illər dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkəsinə çevrilib. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşması da yuxarıda sadalanan tədbirlərin uğurla gerçəkləşdirilməsindən xəbər verir.

2015-ci ildən etibarən dünyada neft qiymətlərinin aşağı düşməsi və dəyişən makroiqtisadi amillər iqtisadi islahatların keyfiyyətcə yeni mərhələyə yüksəlməsini labüd edib. Ölkə başçısı postneft dövrü kimi xarakterizə etdiyi bu yeni iqtisadi reallıqlara vaxtında adekvat reaksiya verib və bunun nəticəsində aparılan islahatlar daha ardıcıl və sistemli xarakter alıb. Bütövlükdə milli iqtisadiyyat və 11 sektor üzrə yaxın orta və uzunmüddətli perspektivlərin əhatə olunduğu tam təfsilatlı strateji yol xəritələri qısa müddət ərzində hazırlanaraq təsdiqlənib. Maliyyə və makroiqtisadi koordinasiya təmin edilib, iqtisadi aktivliyi, investisiya cəlbini və qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi ilə bağlı mexanizmlər yaradılıb. Bunlarla yanaşı, gömrük əməliyyatlarının çevik və şəffaf həyata keçirilməsi məqsədilə malların və nəqliyyat vasitələrinin yoxlanmasında tətbiq edilən "bir pəncərə" prinsipinin daha da təkmilləşdirilməsi və beynəlxalq təcrübədə geniş tətbiq edilən "Yaşıl dəhliz" və digər buraxılış sistemlərinin yaradılması üzrə əsaslı tədbirlər görülüb.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" Azərbaycanda islahatların Prezident İlham Əliyevin rəhbərliyi ilə təkcə qısamüddətli deyil, həm də orta və uzunmüddətli hədəflərə istiqamətlənməsini göstərir. Qeyri-neft ixracının bu ilin ötən dövründə dinamik artması, manatın sabitliyi ilə bağlı uğurlu nəticələr əldə edilməsi, sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması da məhz bunun nəticəsidir.

Sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyi diqqət mərkəzində

Prezident İlham Əliyevin sahibkarlığın inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı tapşırığı istiqamətində indiyədək bir sıra mühüm addımlar atılıb, dövlətin güzəştli kreditləri hesabına investisiya layihələrinin maliyyələşdirilməsi və eləcə də kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi üçün müvafiq tədbirlər görülüb.

Dövlət tərəfindən ayrılan kreditlər və İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) xəttilə görülən işlər də sahibkarlığın inkişafına böyük dəstəkdir. Belə ki, SKMF tərəfindən bu ilin ötən dövrü ərzində minə qədər sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 80 milyon manata yaxın güzəştli kredit verilib.

Azərbaycanda biznes mühitinin inkişafından danışarkən, qeyd edək ki, son illərdə sahibkarlıq fəaliyyətindən və mülkiyyətdən gələn gəlirlərin sürətlə artması bazar iqtisadiyyatı sisteminin formalaşdırılması, habelə özəl mülkiyyətin əsaslarının möhkəmləndirilməsi fonunda baş verib ki, buna da səbəb qanunveriçilik bazasının təkmilləşdirilməsi, müxtəlif dövlət proqramları həyata keçirilərək iqtisadiyyatın ayrı-ayrı sahələrinə dövlət qayğısının artırılması, iqtisadiyyatın idarə edilməsinə müasir yanaşmanın ortaya qoyulması olub. Gəlirlərin artımının inflyasiyanı ciddi faizlərlə üstələməsi həm son istehlaka, həm də yığıma yönəldilən vəsaitlərin səmərəli artımına gətirib çıxarıb.

Biznes mühitinin dinamik inkişafı ilə bağlı onu da xatırladaq ki, respublikada təkcə yerli sərmayədarlar üçün deyil, həm də xarici investisiyalara əlverişli vergi mühiti yaradılıb. Biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib, vergi qanunvericiliyində çoxlu güzəştlər müəyyənləşdirilib, sahibkarlığın və ixracın təşviqinə yönələn bir sıra tədbirlər reallaşdırılıb.

Özəl sektor, kiçik və orta sahibkarlıq, sadəcə olaraq, biznes mühitini yaxşılaşdırmaq, yeni iş yerləri yaratmaq üçün deyildir. Sahibkarlığın inkişafı, əslində, çox böyük islahat deməkdir. Bu islahat ölkə başçısı İlham Əliyevin fərman və sərəncamlarına əsasən, respublikamızda uğurla aparılır. Ölkə başçısının "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına uyğun olaraq, son illərdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən, prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız yoxlamaların qarşısının alınması və digər istiqamətlər üzrə davam etdirilib.

Ölkədə sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində hazırda sistemli tədbirlər davam etdirilir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq, tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilib.

Bununla yanaşı, ölkə Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda onun tətbiq dairəsi, yoxlamaların məqsəd və prinsipləri, yoxlayıcı orqanların səlahiyyətləri ilə yanaşı, sahibkarlara məsləhətlərin verilməsi kimi cox əhəmiyyətli müddəalar nəzərdə tutulub. Hazırda ölkədə tətbiq edilən bu qanun vahid məlumat reyestrinin olmasına, sahibkarların işə məsuliyyətlə yanaşmalarına və nəticədə istehlakcıların hüquqlarının qorunmasına yönəldilib.

Bu gün ölkədə biznesə başlama ilə bağlı prosedurlar 15-dən 2-yə, sərf olunan vaxt isə 30 gündən 2 günə endirilib. Fərdi sahibkarlar 2011-ci ildən, yerli investisiyalı müəssisələr isə 2012-ci ildən etibarən elektron qaydada qeydiyyata alınır.

Biznesə başlanılması prosedurunun sadələşdirilməsi ilə bağlı digər faktlara da nəzər salaq. Hazırda ölkəmizin Vergi Məcəlləsində 104 azadolma və 25 güzəşt növü olmaqla cəmi 129 güzəşt və azadolma mövcuddur. Bununla yanaşı, Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında inzibatçılıq qaydaları sadələşdirilib. Eyni zamanda, elektron müraciət olunması, bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq edilməsi, formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi imkanı yaradılıb.

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin yarımillik monitorinq və qiymətləndirmə hesabatında qeyd olunub ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun tətbiqindən sonrakı 20 ay ərzində vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində cəmi 96 yoxlama, o cümlədən 2017-ci ilin ilk 6 ayı ərzində 26 yoxlama keçirilib.

Yoxlamaların dayandırılmasından əvvəlki 20 ay ərzində isə vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində keçirilmiş yoxlamaların sayı 100 mindən çox olub.

Elşad ABBASOV,
"Embawood" şirkətinin
Müşahidə Şurasının sədri